Azərbaycan Turizm və Menecment Universitetinin Xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi üzrə Komissiyasının Əsasnaməsi

ATMU-KTŞ-Ə(XEŞMT)-01

BAKI - 2023

ATMU-Ə(XEŞMT)-01

Dəyişikliklər haqqında məlumat			
Tarix	**Versiya**	**Tərtib etdi**	**Dəyişikliyin izahı**
21.12.2023	01	Şirməmməd Məmmədov Alikper Rizayev	ATMU-da xüsusi ehtiyacları olan şəxslərin təhsil sahəsində hüquqlarını təmin etmək, onlara tədris və fiziki mühit yaratmaqla və xüsusi təlim vasitəsilə digər təhsilalanlarla eyni auditoriyada təhsilə cəlb etmək

"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment
Universitetinin rektoru
İ.İ.Mədətov
28 dekabr 2023-cü il

Xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi üzrə Komissiyasının Əsasnaməsi

I. Ümumi müddəalar

1.1. Xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi üzrə Komissiyası (bundan sonra, Komissiya) Azərbaycan Turizm və Menecment Universitetində (bundan sonra, ATMU) xüsusi ehtiyacları olan şəxslərin təhsil hüququnu digər şəxslərlə bərabər səviyyədə təmin edilməsi və onların təhsili üçün maneəsiz mühit yaradılması məqsədi ilə formalaşdıran kollegial qurumdur.

1.2. Komissiya ATMU Elmi Şurasının qərarı ilə formalaşdırılır, ona həvalə edilən tapşırıqları rektorun rəhbərliyi ilə struktur vahidləri ilə qarşılıqlı əlaqədə yerinə yetirir.

1.3. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyini, Elm və Təhsil Nazirliyinin, Dövlət Turizm Agentliyinin aidiyyəti sənədlərini, ATMU-nun Nizamnaməsini, ATMU rektorunun müvafiq əmrlərini və bu Əsasnaməni rəhbər tutur.

II. Komissiyanın məqsəd və vəzifələri

2.1.1. Komissiyanın əsas məqsədi ATMU-da xüsusi ehtiyacları olan şəxslərin təhsil sahəsində hüquqlarını təmin etmək, onlara tədris və fiziki mühit yaratmaqla və xüsusi təlim vasitəsilə digər təhsilalanlarla eyni auditoriyada təhsilə cəlb edilməsidir.

2.2. Komissiyanın aşağıdakı vəzifələri vardır:

2.2.1. ATMU-da xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmillişdirilməsi üzrə Tədbirlər planı hazırlayır və onun icrasına nəzarət edir;

2.2.2. Xüsusi ehtiyacları olan şəxslərin tədris və öyrənmə mühitinin təkmilləşdirilməsi məqsədi ilə təkliflər verir;

2.2.3. Xüsusi ehtiyacları olan şəxslərin təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların cəlb olunması və hazırlanması üçün tövsiyyələri verir;

2.2.4. Qiymətləndirmənin təşkilində xüsusi ehtiyacları olan şəxslərin əlverişli şərtlərinin nəzərə alınması məqsədi ilə təkliflər verir;

2.2.5. Xüsusi ehtiyacı olan şəxslərin universitetin infrastrukturuna bərabər çıxışının təmin edilməsi üçün təkliflər verir;

2.2.6. Xüsusi ehtiyacı olan şəxslərə psixoloji dəstək və xeyirxah mühitin yaradılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi üçün təkliflər verir;

2.2.7. Xüsusi ehtiyacları olan şəxslər üçün bərabər imkanların təmin edilməsi məqsədilə təhsilin təşkili və ATMU-nun infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı təklif və müraciətlərə baxır.

III Komissiyanın işinin təşkili

3.1. Komissiyanın işinin səmərəli təşkili məqsədilə aidiyyəti struktur vahidlərindən üzvlər təklif edilir və rektor tərəfindən təsdiq edilir.

3.2. Komissiyaya üzvlər arasından rektor tərəfindən təyin edilmiş bir nəfər sədrlik edir.

3.3. Komissiya üç tədris ili müddətində fəaliyyət göstərir, fəaliyyət müddəti bitdikdə, yeni tədris ilinin başlanğıcından gec olmayaraq komissiya üzvləri yenidən seçilir və komissiya öz fəaliyyətinə davam edir.

3.4. Komissiya öz fəaliyyətini tədbirlər planı əsasında qurur.

3.5. Komissiyanın fəaliyyətini təmin etmək üçün ATMU tərəfindən lazımi şərait yaradılır, İT və maddi avadanlıqlar təmin edilir.

3.6. Komissiyanın sədri komissiyanın fəaliyyətinə dair illik hesabatı rektora təqdim edir.

3.7. Komissiya öz səlahiyyətlərinə dair universitetin fəaliyyətinin təkimilləşdirilməsi üçün təkliflər irəli sürür və çatışmazlıqların aradan qaldırılmasına mütəmadi nəzarət edir, ehtiyac olduqda rektora yazılı müraciət edir.

3.8. Komissiya vaxtaşırı iclaslar təşkil edir, keçirilən iclaslara dair protokollar sədrdə saxlanılır.

IV Komissiya üzvlərinin hüquq və vəzifələri

4.1. Komissiya üzvləri aşağıdakı hüquqlara malikdirlər:

4.1.1. Universitetin bütün struktur vahidləri ilə əlaqə saxlamaq, onlardan lazımi məlumatı əldə etmək;

4.1.2. Problem və ya çatışmazlıqların həlli, eləcə də inkişaf üçün təkliflər irəli sürmək və ona nəzarət etmək.

4.2. Komissiya üzvlərinin aşağıdakı vəzifələri vardır:

4.2.1. Fəaliyyət göstərdiyi müddət ərzində bu əsasnamənin 2.2. bəndində göstərilən vəzifələrini icrasını təmin etmək;

4.2.2. Öz fəaliyyətində şəffaflıq, obyektivlik prinsiplərini rəhbər tutmaq;

4.2.3. Struktur vahidlərdən məlumatın əldə edilməsi, əlaqənin qurulması prosesində nizam-intizam və etik qaydalara əməl etmək.

Hazırki Əsasnamə 29 dekabr 2023*-ci il tarixli Elmi Şura iclasında* 4 *№-li protokolla təsdiq olunmuşdur.*